AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

RİSALƏ

Elmi araşdırmalar jurnalı

2(21)

Bakı – "Elm və təhsil" – 2021

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 15 oktyabr 2021-ci il tarixli (protokol № 8)
qərarı ilə çap olunur

Baş redaktor:
Rafael Hüseynov,
akademik

Redaksiya heyəti:
Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan
Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan
Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan
Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə
Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ
Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya
Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ
Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya
Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ
Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya
Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası
Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan
Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan
Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət
Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan
Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya

Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (21)
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2021, 128 s.

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

© AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
© 2021

KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

Əfsanə Məmmədova. Moğol dövrü miniatür sənəti və Nizami Gəncəvi izləri..... 7
Göyərçin Mustafayeva. Yunus Əmrənin yaradıcılığında Yaradana
və yaradılana sevgi 19
Vüsalə Ağabəyli. Emili Brontenin "Uğuldayan aşırım" romanında
gender məsələləri 28
Vasif Quliyev. Cəlil Məmmədquluzadənin Qarabağda ictimai, mədəni,
təsərrüfat və siyasi fəaliyyəti..... 35

YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

Mahirə Hacıyeva. Utopiya ədəbiyyatında siniflərarası ziddiyyətin
əks olunması və islahatlara çağırış 53
Gülnar Babayeva. Парадоксы игры в современном постмодернистском
французском романе 62
Fatima Dursunova. Дискурс соцреализма в контексте становления турецкой
литературы XX века *(на примере романа Факира Байкурта «Коса»)* 72
Aynur Həsənova. Yazıçılar İttifaqının ədəbi müzakirələrində
1950-80-ci illərin tənqidi..... 80

TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ

Rafael Hüseynov. Azərbaycan musiqi mədəniyyətində 1920-30-cu illərdə
yeniləşmə dalğaları və ideoloji, kulturoloji mübarizələr *(Opera müğənnisi
Xurşid Qacarın sənət taleyi)* 91
Rəhimə Rəhimova. Nizami muzeyində keçirilən ədəbi mərasimlərin
mədəni irsin yaradılmasında rolu 115

UOT 821.512.162

Aynur HƏSƏNOVA
Azərbaycan Universiteti
aynur.hasanova@au.edu.az

YAZIÇILAR İTTİFAQININ ƏDƏBİ MÜZAKİRƏLƏRİNDƏ 1950-80-Cİ İLLƏRİN TƏNQİDİ

Açar sözlər: qəzet, jurnal, məqalə, tənqid, müzakirə
Keywords: newspaper, magazine, article, criticism, discussion
Ключевые слова: газета, журнал, статья, критика, дискуссия

Giriş. 1950-80-ci illərdə ədəbiyyat iki istiqamətdə fəaliyyət göstərirdi. Bir istiqamət sosialist realizminin əvvəlki prinsiplərinə müvafiq əsərlərin yazılmasını özündə əks etdirirdi. Lakin onların da yaradıcılığında artıq vulqar sosiologizmlərə çox nadir hallarda təsadüf etmək olardı. Bu istiqamətdə fəaliyyət göstərən yazıçıların əsərlərində sülh, əmək, xalqlar dostluğu kimi stereotiplərə əsaslanan mövzular diqqəti cəlb edirdi. "Ədəbiyyat qəzeti"nin 1949-cu il 13 yanvar tarixli sayında "Ədəbi tənqidin fəaliyyətini qüvvətləndirməli" adlı baş məqalə çıxmışdı. Məqalədə sovet tənqidçilərinin partiyanın tələblərinin yerinə yetirilməsində fəallıq göstəməsinə çağırış var idi. Bu illərdə partiyaya xidmət etməyən hər hansı bir əsər ciddi tənqidə məruz qalmalı idi. "Pravda" qəzetinin (1949, 28 yanvar) ayrıca redaksiya məqaləsi çap olunduqdan sonra Azərbaycan Sovet Yazıçıları İttifaqında tənqid müşavirəsi çağırıldı. Səməd Vurğunun "Tənqid konfransına məktub"unda, Mirzə İbrahimovun "Ədəbi tənqidin vəziyyəti və vəzifələri haqqında" məruzələrində yenə də tarixilik, sinfilik və partiyalılıq sovet ədəbiyyatşünaslığının ən mühüm prinsipləri kimi dəyərləndirilir. Lakin bununla yanaşı, 1954-cü ilin aprelində keçirilən Sovet yazıçılarının II qurultayında Səməd Vurğunun bu dövrdə ən cəsarətli addım kimi romantizm prinsiplərinin ədəbiyyata gətirilməsi kimi təklifi amansız tənqid atəşinə tutulmuşdu. Səməd Vurğun bu qurultayda poeziya haqqında məruzə edir və qeyd edir ki, ədəbiyyatı romantizm kimi dəyərli qanaddan məhrum etmək onu sırf məişətçiliyə endirmək deməkdir. S.Vurğunun "Sosialist realizmi və inqilabi romantika uğrunda" məqaləsi ideal qəhrəman, klassik irsə münasibət kimi problemlərə həsr olunmuşdu.

1950-ci illərdə Azərbaycan sovet ədəbiyyatında konfliktsizlik nəzəriyyəsi də mövcud olmağa başladı. Öz kökünü rus sovet ədəbiyyatından götürmüş, müharibənin dəhşətləri haqqında yazılan bir neçə əsəri istisna etməklə, bu dövrdə ərsəyə gətirilən ədəbi əsərlər əsasən "istehsalat" mövzusuna həsr olunurdu. İkinci Dünya müharibəsi nəticəsində xarabazarlığa çevrilmiş Avropadan da qat-qat ağır vəziyyətdə olan, aclıq və səfalət içində əzab çəkən SSRİ-də yaradılan ədəbi əsərlərdə gerçək həyatdan tamamilə uzaq olan mövzular öz əksini tapmaqda idi. Rəsmi ideologiya mövcud vəziyyətdən çıxış yolunu ədəbiyyat və incəsənəti yalan danışmaq üçün səfərbər etməkdə görürdü. Yəni gerçəklikdə mövcud olan problemlərin təsviri ədəbi əsərlərdə olduğu kimi əks edilməməli, ört-basdır olunmalı idi. Əsərlərdə kommunizm quruculuğu ilə məşğul olan insanlar təzə neft yataqları kəşf edir, şəhərlər salır, kənd təsərrüfatında əmək nailiyyətləri qazanır, tikintidə hünər göstərirdilər. Bütün bu proseslər həqiqətən baş versə də, həmin dövrün insanının ekzistensial problemindən qat-qat uzaq idi. Lap öncədən sosialist realizmi prinsiplərinə müvafiq ədəbiyyatla həyat ara-

sında yaranmış uyuşmazlıq 50-ci illərdə yazılmış nümunələrdə kəskin uçuruma çevrilmişdi. Bu da "konfliktsizlik nəzəriyyəsi"nin yaranmasına gətirib çıxardı. Sovet dövlətinin ideoloqları belə hesab edirdilər ki, ədəbi-bədii nümunədə məzmundan asılı olmayaraq hər hansı bir konflikt cəmiyyətdə mövcud olan real konflikti ortaya qoymağa kömək edə bilər. Konfliktsizlik nəzəriyyəsi prinsipi ilə yazılan əsərlərdə ciddi bir qəhrəman tipinin yaranması, bu qəhrəmanın bir insan kimi bütün mürəkkəb aləmi ilə canlandırılması qeyri-mümkün idi. "Müsbət qəhrəman" ziddiyyətli olmamalıdır" şüarı onsuz da insanın real problemlərinin təcəssümünə əngəllər yaradan "istehsalat romanları"nın bədii-estetik dəyərini heçə endirirdi. Qulu Xəlilov qeyd edirdi ki, "...heç bir ədəbi növ bəşəriyyətin tarixini, ictimai-siyasi və mənəvi həyatını, dövrün ehtiras və pafosunu roman janrı qədər hərtərəfli, dərindən əks etdirmək gücünə qadir deyil... Canlı həyata yaxınlaşmaq, üzünü əsl ictimai münasibətlərə, konkret faktlara çevirməklə roman janrı möhkəm özülə, tükənməz mövzuya malik oldu, məğlubedilməz qüvvəyə arxalandı. Bu qüvvə həyat həqiqəti, realizm idi. Öz qoynunda realizmə geniş yer vermək roman janrının ən böyük qələbəsi idi" [2, s.5-6]. Təqdim olunan obrazı yalnız "aydan arı, sudan duru" görmək istəyi ona gətirib çıxarırdı ki, bəzi yazıçılar qəhrəmanın mənəvi aləminin təsvirindən imtina edirdilər. Beləliklə də cansız, quru, müqəvva "müsbət qəhrəmanlar" meydana gəlirdi. Mirzə İbrahimov 1953-cü ildə çap olunmuş "Dramaturgiyanın bəzi sənətkarlıq məsələləri" adlı məqaləsində konfliktsizlik nəzəriyyəsinin sovet ədəbiyyatına vurduğu zərərləri konkret misallarla göstərirdi. Bu tipli əsərlərdə konflikt yaxşı ilə ən yaxşı arasında baş verə bilərdi. Onlar varlığın, mürəkkəb həyati proseslərin dərinliklərinə enmək əvəzinə asan, sxematik, şablon yolla gedərək həqiqi fövqəladə, kəskin konflikti, ciddi dramatizmi bəsitləşdirir və saxtalaşdırırdılar. Bu nəzəriyyə mahiyyəti etibarilə çox davam etmədi. Hər zaman olduğu kimi, Mərkəzi Komitə bu dəfə də işə qarışaraq həmin "nəzəriyyəni" pislədi. Bu dövrdə partiyanın qərarlarına müvafiq olaraq yazıçılar müharibə mövzusunda yazmağa üstünlük verirdilər. Yazıçılar İttifaqında gedən müzakirələrin bir qismi də bu mövzuda yazılmış əsərlərin tənqid olunması idi. Ümumiyyətlə, bu illərdə müharibə mövzusunda yazmayan sənətkar, demək olar ki, yox idi, xalqın taleyi ilə bağlı mövzuda söz deməyi hər bir sənətkar özünə borc bilirdi. S.Rəhimov, M.Hüseyn, Ə.Məmmədxanlı, Mir Cəlal, Ə.Vəliyev, İ.Əfəndiyev, M.S.Ordubadi, Əbülhəsən, S.Vəliyev, H.Abbaszadə və bu kimi nasirlər qəhrəman azərbaycanlı döyüşçünün parlaq obrazını yaratmağa üstünlük verirdilər. Bu dövrün nəsrində ideya, konkret mətləb, müəyyən bir söz demək, fikir təlqin eləmək əsas yer tuturdu. Bu baxımdan bu dövrdə yaranmış əsərlər ədəbiyyat tarixində sənətkarlıq keyfiyyətlərinə görə gələcəkdə yazılacaq əsl sənət nümunələrinin ilkin eskizləri təsiri bağışlayırdı. Ədəbiyyatşünas alim Bəkir Nəbiyev Azərbaycan yazıçılarının XI qurultayında çıxış edərək bildirirdi: "Cəbhəni, əsgər həyatını, ozamankı döyüşün xüsusiyyətlərini lazımi səviyyədə öyrənib əks etdirməmək nəsrdəki sxematizmin başlıca səbəblərindən sayılırdı" [6, 16]. Bununla belə, bəzən müharibəyə birtərəfli yanaşma ədəbi-bədii və tənqidi fikrin inkişafında o dərəcədə xarakterik hal alırdı ki, bu mövzu ilə bağlı əsərlər üçün hazır olan qəliblərdən kənaraçıxma halları qüsur, çatışmazlıq hesab olunurdu. Bu dövrdə Yazıçılar İttifaqında gedən müzakirələrdən biri də yazıçı Əbülhəsənin "Müharibə" romanının tənqidinə həsr olunmuşdu. Müzakirələrdə adıçəkilən romanda sərt cəbhə həyatının hərtərəfli, dolğun, realist planda təsviri, təsadüfi qorxaqlığın, acizliyin, təbii səhvlərin göstərilməsi döyüşçü-yazıçının cəbhə həyatına yaxından bələd olmaması kimi mənasız bir ittiham doğururdu: "Hər şeyi bədii ədə-

biyyatda hazır görməyə vərdiş edənlərsə yazıçını cəbhə həyatını yaxşı bilməməkdə ittiham edirdilər" [3, s.6].

1950-60-cı illərdə Stalinin ölümü, hakimiyyətin dəyişməsi ölkədə uzun sürən repressiya, şiddət, qorxu içində yaşamaqdan bezib artıq bütün sədləri qırmağa hazır olan insanları bir qədər sakitləşdirməyə sövq etdi. Ölkənin yeni sosial-ideoloji qərarları tətbiq olundu. Sov.İKP-nin XX qurultayının əsas qərarlarından biri də "şəxsiyyətə pərəstiş" dövründə repressiyaya uğrayan "xalq düşmənləri"nə bəraət verilməsi idi. Bu qurultayda N.Xruşşovun Stalin şəxsiyyətinə pərəstişi və Stalin repressiyalarını qəti şəkildə pisləməsi və bunun sovet vətəndaşlığına vurulan zərbə olaraq dəyərləndirilməsi, keçmiş postsovet ölkələrinin də nisbətən sərbəstliyə meyil etməsi mədəniyyətdə, o cümlədən ədəbiyyatda yeni dəyər prinsiplərinin, istiqamətlərin meydana gəlməsinə yol açdı. Bu illərdə mühacirətdə fəaliyyət göstərən mətbu orqanları da qeyd etmək yerinə düşərdi. Uzun müddət Azərbaycandan uzaq düşən siyasi-ədəbi xadimlər yaşadıqları ölkələrdə, xüsusilə Türkiyədə ana vətənin mədəniyyəti, ənənəsi uğrunda usanmadan yazıb-yaratmaqdan heç bir zaman vaz keçməmişdilər. Bununla bağlı olaraq qeyd etmək yerinə düşər ki, Avropada məskən salmış azərbaycanlı ziyalıların çoxu 1947-ci ildə özlərinə ikinci vətən hesab etdikləri Türkiyəyə köçdülər. Türkiyəyə köçən ziyalılar Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə Ankarada "Azərbaycan Kültür Dərnəyi" adlı təşkilat yaratdılar. Bu təşkilatın öhdəsində müəyyən vəzifələr müəyyənləşdirilmişdi. Müəyyənləşdirilmiş vəzifələrdən ən birincisi Azərbaycanın tarixi, mədəniyyəti, milli-mənəvi dəyərlərinin təbliğ olunması idi. Bu məqsədlə Azərbaycan haqqında yazılan məqalələr tərtib olunmalı, yerli mətbuatda dərc olunaraq yayılmalı idi. Vəzifələrdən biri də ehtiyacı olan azərbaycanlılara həm maddi, həm də mənəvi dəstək göstərmək idi.

Türkiyə hökuməti Azərbaycan siyasi mühacirlərinin siyasi fəaliyyətini qadağan etmişdi. Ona görə də siyasətçilər mədəni dərnək fəaliyyətini "Müsavat" partiyasının prinsiplərinə müvafiq uzlaşdırmışdılar. Həmçinin dərnəyin adında istifadə olunan "kültür" ifadəsinin arxasında siyasi fəaliyyət də dururdu. 1960-cı illərə qədər davam edən bu dərnəyin fəaliyyətində Sovet Azərbaycanının Yazıçılar İttifaqının heyətindən qoşulub gizli iclaslar keçirənlər də var idi.

1958-ci ildə çağırılmış Azərbaycan Yazıçılar İttifaqının III qurultayında Mir Cəlal "Sovet nəsri dörd il ərzində" adlı məruzə ilə çıxış edir. Görkəmli yazıçı-alim öz məruzəsində son illər ərzində çap olunan əsərlərin ideya-məzmun xüsusiyyətlərindən söz açaraq yeni istiqamətdə nəsr nümunələrinin yaranma zərurəti dövrünün meydana gəldiyini vurğulayır. Məruzə iştirakçıların da bu mövzuda diskussiyasına yol açır. Diskussiyada artıq yeni meyarların müəyyən olunması müzakirə olunurdu. Bu qurultayda əslində sosialist realizmindən kənarlaşma qətiyyən müşahidə olunmurdu. Lakin Stalin despotizminin bir qədər yumşalması, repressiya qurbanlarının bəraət alması incəsənət nümayəndələrinə də sovet ideologiyasına uyğun insanın tərbiyə olunması problemindən canlı insan obrazının yaradılması imkanını yaratdı. Bu baxımdan görkəmli rus yazıçısı İlya Erenburqun (1891-1967) məhz bu mövzuda yazdığı "Ottepel" povestinin adından götürülmüş ottepel – yumşalma dövrü özünün fərqli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Məsələn, tarixi mövzuda yazılan əsərlərdə əvvəlki dövrlərdə mövcud olan tarixi proseslərin təcəssümünə deyil, insanın içində baş verən təbəddülatların, iztirabların təsvirinə daha çox yer verilirdi. Beləliklə, yeni xarakterlərə İsmayıl Şıxlının, İsa Hüseynovun, Yusif Səmədoğlunun və b. yaradıcılığında rast gəlinir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu illərdə yeni ədəbi təşkilatlar yaranır. İndiyə qədər sovet ideologiyasına xidmət edən bayağı mövzu-

lardan bezmiş yetişməkdə olan yeni ədəbi nəsil Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən bu dərnəklərdə yeni mövzulara müraciət edir, çap olunurdu. Bu illərdə fəaliyyət göstərən "Hücum" dərgisində çap olunan əsərlər yeni ruhda yazılmış ədəbi-bədii təfəkkürün məhsulları idi. Lakin buna baxmayaraq, "İnqilab və mədəniyyət" jurnalı aparıcı ədəbi tribuna mövqeyini qoruyub saxlamışdı.

Ottepel – yumşalma dövrünün bariz ifadəsi olan "altmışıncılar2 ilk dəfə rus ədəbiyyatşünası Stanislav Rassadin tərəfindən irəli sürülmüşdür. Bu ifadə ilk dəfə onun "Altmışıncılar. Gənc müasirlik haqqında kitab" adlı məqaləsində öz əksini tapmışdı. Bu məqalədə o, yeni nəsli təmsil edən ədəbi nümunələr və onların şərhini verərək, ədəbi dövrü bütövlükdə xarakterizə edərək yeni ədəbiyyatın əvvəlki dövrün senzurası, hakim ideologiyası ilə qarşıdurma şəklində təzahür etdiyini vurğulayır.

Ölkədə siyasi rejimin dalbadal dəyişməsi (Mircəfər Bağırovun güllələnməsi, İmam Mustafayevin getməsi) yazıçı talelərinə təsirsiz ötüşmədi. İmam Mustafayevin Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilməsindən sonra 1956-cı ildə Mirzə İbrahimov Ali Sovetin sədri seçilir. Görkəmli yazıçının bu vəzifəyə seçilməsi ölkədə milli proseslərin başlanmasına rəvac verir. Elə həmin illərdə "Kommunist" (1956-cı il 25 oktyabr) qəzetində çıxan Mirzə İbrahimovun "Dövlət idarəsində Azərbaycan dili" adlı məqaləsində qeyd olunurdu: "Respublikada sovet hakimiyyətinin ilk illərində dövlət idarələrində Azərbaycan dilinin işlənməsinə xüsusi rəğbət yetirilir və bununla bağlı bütün təhriflərin qarşısı alınırdı. Lakin təəssüflə qeyd etmək istəyirəm ki, sonuncu on beş-iyirmi ildə bu baxımdan səhvlərə yol verilmişdir. Hətta bəzi idarələrin və bəzi adamların ana dilimizə biganə, laqeyd münasibətinin yaranması hallarına rast gəlinir. Hətta onu da demək lazımdır ki, vətəndaşlarımızın Azərbaycan dilində olan ərizələrinə və ya digər yazılarına azərbaycanca olduğu üçün cavab verməyən bürokratlar da vardır" [4, s.3-4]. Yuxarıda qeyd etdiyimiz kimi, qatı kommunist siyasi ideologiya zəifləsə də, bəzi yumşalmalar olsa da, mövcud totalitar rejimin hakim kəsildiyi və həmin dövrdə erməni lobbiçilərinin də üstümüzdə "nəzarət"inin əksik olmadığı vaxtda görkəmli yazıçının məqaləsi ana dilinə himayədarlığı ilə bərabər ruslaşdırma siyasətinə qarşı da atılan bir addım idi. Məhz onun səyləri nəticəsində 1956-cı ildə respublika Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması ilə bağlı yeni maddələrin əlavə edilməsi ölkədə ana dilimizin xüsusilə təhsil və mədəniyyət sahələrində daha çox möhkəmlənməsinə səbəb oldu. Bu illərdə ana dilimizin əsrlər boyu təqiblərə, istismara məruz qalması haqqında Yazıçılar İttifaqında da ədəbi müzakirələr keçirilir. Məhz bu dövrdə mühacirətdə, əsasən qardaş Türkiyədə yaşayan və doğma vətənin həsrəti ilə fəaliyyət göstərən azərbaycanlı ziyalılarımızın keçirdiyi tədbirlər ölkəmizdə də azadlıq ruhunun möhkəmlənməsinə rəvac verirdi. Ankarada fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyi Azərbaycanda gedən siyasi prosesi daim izləyir, dövrün bütün hadisələrini öz orqanı olan "Azərbaycan" dərgisində işıqlandırırdı.

1956-58-ci illərdə Azərbaycan dili haqqında dövlət qanunu qəbul edildikdən və bu qanunun əsas təşəbbüskarı M.İbrahimov tərəfindən "Azərbaycan dili dövlət idarəçiliyində" məqaləsi dərc edildikdən sonra dövlət dili məsələsi geniş müzakirələrə səbəb oldu, dəfələrlə tənqid edildi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 16-17 iyun 1959-cu il tarixində keçirilmiş səkkizinci plenumunda çıxış edənlərin, demək olar ki, hamısı dil qanununun əsas təşəbbüskarı olan M.İbrahimovu kəskin tənqid etdi. Ana dilini ürəkdən sevən, onu öz həyat tərzinə çevirərək yaşayan millətçi yazıçı və müdrik insan M.İbrahimov bütün hücumlara cəsarətlə müqavimət göstərir, dövlət dilinə münasibətini tənqid edənlər, ona "millətçi" damğası vurmaq

istəyənlər qarşısında geri çəkilmirdi. Böyük yazıçı 1959-cu ildə yazdığı "Dostluğun gücü" məqaləsində yazırdı: "Yəqin ki, bir çox insan bu dövrdə dilimizin hökumətdə istifadəsini artırmaq uğrunda apardığım əzab və əzabları bilir" [4, s.68]. Sonralar Los-Ancelesə köçən, Bakıda uzun illər "Bayatı" televiziya almanaxının müəllifi, aparıcısı, tərcüməçi-şair Aleksandr Qriç "Otuz il sonra" adlı məqaləsində Azərbaycan dilinin cəmiyyətdəki rolundan yazır: "Oxucu inana bilər: Mirzə İbrahimov Azərbaycan dili uğrunda məhz mübarizə aparmışdır" [10, s.152]. 1956-cı ildə M.İbrahimovun təşəbbüsü ilə qanun qəbul edildikdən sonra Azərbaycan dilinin dövlət dili kimi əhəmiyyətini azaltmaq üçün çoxsaylı cəhdlərə baxmayaraq, qanun Azərbaycan dilinin cəmiyyətdə layiqli yer tutmasında mühüm rol oynadı.

Bu illərdə milli azadlıq ideyaları bir hərəkata çevrilmişdi. Bu hərəkata xüsusilə ədəbi yaradıcılığa başlayan gənc yazıçı və şairlər qoşulmuşdu. Çox tezliklə Bəxtiyar Vahabzadənin Azərbaycan xalqını iki yerə parçalayan tarixi faciəni təcəssüm edən "Gülüstan" poeması ilə yanaşı Konstitusiyada ana dili ilə bağlı yeni dəyişiklikdən ilhamlanan "Ana dili" şeiri çap olunur. Bu illərdə Yazıçılar İttifaqında gedən müzakirələrdə də ana dilinin əhəmiyyəti vurğulanır, xüsusilə gənc şairlərə yad dillərin təsirindən uzaqlaşmağı aşılayan şeirlər yazmaq tövsiyə olunurdu. B.Vahabzadənin "Latın dili", X.Rzanın "Laylam mənim, nərəm mənim", M.Şəhriyarın "Türkün dili" kimi şeirlərini nümunə göstərmək olar.

"Gülüstan" poemasının dərc olunmasına icazə verilmədiyi üçün redaktorun işini itirməsi ilə artıq yeni ədəbi siyasətin meydana çıxması və sosialist realizminin üfüqündə rəsmi ideologiyanın geri çəkilməsi müşahidə olunur.

Azərbaycan Yazıçılar Birliyi bu müddət ərzində iki qurultay keçirmişdi. Qurultayların ana dilində keçirilməsi və rəsmi kargüzarlıq işinin də öz dilimizdə aparılması yeni hadisə kimi ədəbiyyat tarixində öz yerini tapdı. Bu haqda B.Əhmədov "XX yüzil Azərbaycan ədəbiyyatı; mərhələlər, istiqamətlər, problemlər" adlı kitabında qeyd edir: "M.İbrahimovun milliləşmə prosesinin baş memarlarından olması ədəbi düşüncədə milli ideyanın genişlənməsinə müəyyən təkan vermiş oldu" [9, s.435].

Həqiqətən də 1960-cı illərdən başlayaraq yumşalmağa doğru gedən qlobal ictimai-siyasi atmosfer və SSRİ-də ideoloji cərəyanın zəifləməsi nəticəsində sənət sahəsində fəaliyyət göstərən gənc istedadlar mövcud siyasi sistemi tənqid edən əsərlər yaratmağa başladılar. 60-cılar nəslinin görkəmli nümayəndələrinə misal olaraq İ.Hüseynovu, S.Əhmədlini, M.Arazı, Anarı, Ə.Əylislini, Elçini, S.Rüstəmxanlını, Ə.Salahzadəni, F.Kərimzadəni göstərmək olar. İsmayıl Şıxlının "Dəli Kür" romanı bu dövrün xüsusiyyətlərini özündə əks etdirir. Təbii olaraq adları çəkilən sənətkarlar öz yaradıcılıqlarında əksər hallarda demək istədiklərini sətiraltı mənalarla təsvir edirdilər. Tam açıq danışmaq hələ də mümkün deyildi. Lakin bu proses artıq başlamışdı və geriyə dönüş qeyri-mümkün idi. Bu dövr sovet totalitar rejimində senzuralı düşüncə tərzinin sonunun başlanğıc fəaliyyəti kimi dəyərləndirildi. 1960-cı illərə keçid 1940-1950-ci illərdə ədəbiyyata gələn bir nəslin iştirakı ilə başladı və davam etdi. 60-cı illər nəslinin, xüsusilə Anar, Ə.Əylisli, Elçin, S.Əhmədli, M.Süleymanlı kimi nasirlərin yaradıcılıq axtarışları ədəbi tənqiddə kəskin polemikalar doğurdu, ciddi, amansız tənqidlərə məruz qaldı. Tənqidin fəallıq göstərdiyi bu illərdə həmin nəslin nümayəndələri bu tələblər, eləcə də ittihamlar qarşısında güzəştə getmirdilər, amma yazdıqlarının əsl sənət olduğuna inanaraq, inamla yazıb-yaradırdılar. Xoşbəxtlikdən onlar güzəştə getmədilər, getsəydilər, "boz ədəbiyyat" yaradanların sayı bir qədər də artacaqdı. Amma həmin nəslin özünütəsdiqə meyil göstərməsində bu gün yanlış görünən hökmlərin, mülahizələrin rolu az olmadı, çünki həmin nəsil həmin

tənqidlə mübarizədə ərsəyə çatdı, əlbəttə, həmin dövrdə bədii ədəbiyyatın öz prinsiplərinə, marağına istinad edilən, nəzəri səviyyəsi, təhlil mədəniyyəti və orijinal müşahidələri ilə seçilən məqalələr az deyildi. Məhz həmin məqalələr "tənqid" atəşinə tutulan yazıçılara inam, ruh verirdi, amma heç vəchlə istedad, onlar üçün naməlum qalan yaradıcılıq göstərişləri, məsləhətləri vermirdi və verə də bilməzdi.

Bu baxımdan bizə tanış olan sosialist realizmi konsepsiyasını nəzərdən keçirmək tamamilə kifayət edər: faktiki olaraq, bütün sovet incəsənəti nəzəriyyəsinin və praktikasının monopolisti qismində çıxış edən yaradıcılıq metodu özünü dünya estetik fikrinin inkişafının zirvəsi, bütün digər metodları yarıtmaz elan edirdi. Bu, ilk növbədə mədəniyyətin totalitar ideologiyanın prinsiplərini avtomatik olaraq özünətətbiqi ilə bağlı idi. Sovet mədəniyyəti ilə bağlı keçən əsrin 50-ci illərinin sonunda bir tərəfdən tendensiyalı mədəniyyət, ikinci tərəfdən onun daşıyıcıları və təbliğatçıları yorulmuşdular. 60-cılar dediyimiz fenomen həmin bu yorğunluğun məhsulu idi.

S.Vurğunun son şeirləri belə bir "yorğunluq" xəstəliyinin simptomları idi. Əgər bu yorğunluq olmasaydı, Ç.Aytmatov kimi bir yazıçı formalaşmazdı. Bu dövrdə vaxtilə sosialist realizmi ideyasını ruh yüksəkliyi ilə qəbul etmiş xarici sənətkarlar bu və ya digər şəkildə dünyagörüş mövqelərini dəyişdirdilər. Fransız şairi Lui Araqonun son əsərləri buna misal ola bilər. Ümumiləşdirib qeyd etmək olar ki, SSRİ-nin dağılması təkcə sovet iqtisadiyyatının deyil, həmçinin sovet mədəniyyətinin süqutu idi.

60-cı illərdə yaranan əsərlərin ədəbi ictimaiyyətə gec, çətinliklə çatdırılmasında, həmin əsərlər haqqında yanlış qənaətin, təsəvvürün yaradılmasında tənqidin günahı az deyildi, amma ittihamları ilə "tanınan" tənqidçilərin tələbləri, ən başlıcası isə səviyyəsi, ədəbi duyumu qarşısında güzəştə gedən yazıçılar da var idi. Onların əsərləri kommunist ideologiyasına xidmət edən, bir tərəfdən ədəbi prosesdə stereotip mövzu və mənalandırma, müsbət qəhrəman tipi, həyatdan uzaq, gerçəkliklə ziddiyyət təşkil edən bədii həqiqətlərin, ideyaların, idealların axınını yaradırdı, bir tərəfdən də öz tənqidçilərini yetişdirirdi.

Azərbaycan Yazıçılar Birliyində 60-cı illərin Azərbaycan nəsrini məqbul edən ən ümdə məsələlərdən biri qəhrəman və mühit problemi olmuşdur. Mübaliğəsiz demək olar ki, bu, təkcə bizim milli nəsrimiz üçün deyil, ümumən dünya bədii nəsri üçün hər zaman aparıcı mövqedə duran bir məsələdir. Buna görə də təsadüfi deyil ki, tənqid və ədəbiyyatşünaslıq da daim diqqətini həmin problemin işıqlandırılması üzərində cəmləşdirir.

İstər bədii nəsrin özünün, istərsə də ədəbi tənqidin qəhrəmanı və mühit probleminə bu cür sürətli, intensiv diqqət, zənnimizcə, sənətin əbədi mövzusu olan İnsan və Zaman mövzusu ilə bağlıdır: bu fəlsəfi mövzunun bədii şərhi özünü qəhrəman və mühit probleminin təcəssümünün spesifikliyində tapır. Məlum olduğu kimi, qəhrəman və mühit probleminin iki tərəfi vardır: birincisi sosioloji aspektdir ki, burada qəhrəmanın fəaliyyət və davranışında onun yaşadığı cəmiyyətin ictimai münasibətləri, mühitin rolu, təsiri müəyyənləşdirilir; ikincisi isə mənəvi-psixoloji aspektdir ki, burada qəhrəmanın iç dünyasında, daxili aləmində baş qaldıran duyğu və düşüncələr, onun mənəviyyatında yaranan müsbət və mənfi dəyişikliklər, bunların mühitin ümumi mənəvi ab-havası ilə bağlılığı, uyğunluğu, ya da təzadlığı və s. məsələlər araşdırılır. Bizi məhz ikinci aspekt daha çox maraqlandırır. Lakin aydındır ki, hər iki aspekt bir-biri ilə möhkəm surətdə bağlıdır və bunları qəti şəkildə ayırmaq əslində mümkün də deyildir.

60-cı illərdə fəallıq kəsb edən bir çox üslubi meyillərin, ədəbi-bədii tendensiyaların, poetik sistemin 70-ci və 80-ci illərdə davamı və inkişafı müşahidə olunur.

Buna baxmayaraq, ən konservativ yazıçıların belə meyil göstərdikləri orijinal ənənə də əsas məqsəd, istiqamət və hədəfə çevrilə bilmədi. Sovet təfəkkürü ədəbi prosesdə yenə də hökm sürürdü. Bu prinsiplərdən kənara çıxan əsərlər güclü təqibə və tənqidə məruz qalmaqda davam edirdi. Bu illərdə Mövlud Süleymanlının sovet cəmiyyətini, sistemi tənqid edən, onun cəmiyyətdə törətdiyi faciələri özündə əks etdirən "Dəyirman" povesti çap olunur. Əsər çap olunar-olunmaz müəllifini antixalq, antiazərbaycanlı kimi ittihamla dolu ifadələrlə tənqid etdilər. Bəkir Nəbiyevin əsərin Azərbaycan reallığını əks etdirməyən və xalqı təhqir edən məziyyətləri olması haqqında "Kommunist" qəzetində məqaləsi dərc olundu. 1980-ci ildə Yazıçılar İttifaqının "Natəvan" klubunda gedən müzakirələrdə M.Süleymanlını tənqid edənlərdən biri də Əziz Mirəhmədov idi. O, müəllifin bu əsərini uğursuz hesab edərək qeyd edirdi ki, bədbin əhvali-ruhiyyəyə malik bu əsər keçmiş patriarxal dövrün təcəssüm olunmasına bənzəyir, yazıçının sosialist realizminə uyğun fəal həyat mövqeyi əsərdə öz əksini tapmamışdır. Ələviyyə Babayeva, Əli Vəliyev də əsərdə müsbət qəhrəmanın olmamasını qüsur hesab edərək əsəri tənqid hədəfinə tutmuşdular. Bunula yanaşı, yazıçının əsərini təqdir edənlər da var idi. R.Rza, Anar, Elçin, İ.Şıxlı, İ.Əfəndiyev, Ə.Əylisli əsəri müdafiə edirdilər. Bu illərdə "Dəyirman" povesti haqqında Rəsul Rzanın "Ulduz" jurnalında "Dəyirman dərdi" adlı əsəri təqdir edən yazısı da çapa hazırlanmış, lakin dərgidən çıxarılmışdı. "Biz belə deyilik, bu, xalqımıza ləkədir" deyənlər isə üzümçülüyün inkişaf problemlərinə dair cildlərlə əsərlər həsr edərək üzümçü qızların şəninə tərif yağdıranların, meşələri qırıb yerinə üzüm saldıranların səsinə səs verirdilər. Yalançı uğurları, nailiyyətləri tərənnüm edərək durğunluğa düçar olan xalqın ağrısını, əzabını, narahatlığını üzə çıxaran bu əsərin taleyi dövrün keşməkeşli yollarından üzüağ çıxaraq ədəbiyyat tariximizdə yeni bir istiqamətin, tendensiyanın əsasını qoymuşdu. Əsərin Moskvada çap olunmasının qəti əleyhinə çıxanlar da var idi. Məhz bu müzakirədə yeni nəsil və köhnə nəsil təfəkkürü arasında mübarizə gedirdi. Köhnə ədəbiyyatı təqdir edənlər çıxışlarında əsərdə toğluların başının kəsilməsi, qanının suya axıdılması, ruzi-bərəkət simvolu olan dəyirmanın daha dən üyütməməsi, sərxoş insanların məkanına çevrilməsi kimi təsvir olunan hadisələri ədəbiyyatımıza ciddi ləkə adlandırırdılar. Lakin əsəri müdafiə edənlər də müzakirədə az deyildilər. Əsərə qarşı yaranmış bu səs-küyün qarşısı Azərbaycan KP MK-nın 1-ci katibi Heydər Əliyevin müdaxiləsindən sonra alındı. H.Əliyevin əsəri təqdir edən qərarından sonra povestə münasibət dərhal dəyişdi. Şahnəzər Hüseynovun "Fəal həyat mövqeyi və sənətkar refleksi" məqaləsi [9, s.173-187] əsərə artıq yeni – obyektiv münasibəti ortaya qoydu. Bu məqalədə tənqidçi alim M.Süleymanlının "Dəyirman" povestini digər əsərlərlə müqayisə edir və yüksək məziyyətlərindən söz açır.

Mövlud Süleymanlının mübahisə obyekti olan və tənqid oluna-oluna tənqidə dözə bilən əsəri haqqında tədqiqatçı yazır: "Dəyirman" povestinin adını yazıçı əgər "Kababxana" qoysaydı, əsərin nəinki mövcud bədii kompozisiyası pozulardı, hətta əsər kimi güclü bədii-estetik təsir yaratmazdı. "Dəyirman" burada həyat materialının bədii əsər materialına çevrilməsi vasitəsidir. Dəyirmanın gerçəklik həqiqətlərinə uyğun gəlib-gəlməməsi, protokol dəqiqliyi müəllifin bədii estetik mövqeyinin əsas məqsədi deyildir" [1, s. 179].

Beləliklə, 60-cı illər tendensiyası öz təsirini göstərmiş və artıq 80-ci illər ədəbi tənqidində yeni münasibət öz əksini tapmışdı.

"Dəyirman" povestinin "Azərbaycan" jurnalında çap edilməsi jurnalın öz həyatında da mühüm hadisəyə çevrildi. Əsərin yaratdığı səs-küy Mərkəzi Komitəyə qədər gedib

çıxmışdı. İndiyə kimi jurnalı oxumayan rusdilli məmurlarda da "Azərbaycan" jurnalına maraq oyanmışdı. Artıq o dövrdən "Azərbaycan" jurnalına daha çox maraq var idi.

70-80-ci illərin ədəbi prosesi müəyyən mənada 20-50-ci illərin ədəbi-mədəni həyatının davamı idi. A.Məmmədov "Drujba narodov" [1987, 7], V.Quliyev "Literaturnıy Azerbaydjan" [1988, 3] jurnallarında dərc olunmuş məqalələrində qeyd edirdilər ki, yeni Azərbaycan nəsri XX qurultayla başlayan yeni dövrün yetirməsidir. Lakin qeyd etmək lazımdır ki, yeni Azərbaycan nəsrinin klassik Azərbaycan nəsrinin təcrübəsi və sovet dövründə yazıb-yaradan nasirlərin ən yaxşı ənənələri yetirməsi fikri daha əsaslı məntiqə dayanır. Ədəbi prosesin fasiləsizliyi ilk növbədə sələf-xələf münasibətlərinin qırılmazlığı ilə təmin olunur. Anar, Elçin, M.Süleymanlı, Ə.Əylisli XX qurultaydan ruhlanmış, amma M.Cəlildən, o cümlədən Molla Nəsrəddin ədəbi məktəbindən öyrənmişdilər.

60-cı illərdən fərqli olaraq, 80-ci illərdə Azərbaycan nəsrində roman janrının xüsusi inkişafı diqqəti cəlb edir. Bu dövrdə Yazıçılar İttifaqında gedən müzakirələrdə xüsusilə tarixi mövzuda yazılmış romanların geniş təhlil olunması müşahidə olunur. Babək, Şah İsmayıl Xətai, M.Ş.Vazeh və bu kimi tarixi şəxsiyyətlər haqqında yazılmış bədii əsərlər məlum və məşhur faktların məhdudluğundan kənara çıxmaması ilə yadda qalır. Müxtəlif dövrdə yaşamış şəxsiyyətlərin qəhrəmanlıqları bir-birinə bənzədiyi kimi, sənətkarların da yaradıcılıq taleləri arasında oxşarlıqlar fərqlərdən çoxdur. Müzakirələrdə bu tipli əsərlərdə sənətkar və cəmiyyət, ölüm və həyat, tale və azadlıq və s. problemlərin ətrafında onların öz bədii irslərinin imkanlarına istinad etməklə maraqlı fikir mübadilələri aparılırdı. Məhz bu tipli müzakirələrin nəticəsi olaraq Anarın, Elçinin yaradıcılığında esse janrı inkişaf etməyə başlamışdı. 70-ci illərin sonu, 80-ci illərdə Yazıçılar İttifaqında İ.Əfəndiyevin ("Geriyə baxma, qoca", "Üçatılan"), İ.Hüseynovun, Ç.Hüseynovun assosiativ üslubu, İ.Əfəndiyevin təhkiyəsində lirik-psixoloji başlanğıcla realist-obyektiv üslubun vəhdəti, yeni epik axtarışların inkişafında yeni təmayülün inkişafı ilə bağlı keçirilmiş müzakirələr ədəbi prosesin gedişində mühüm rol oynadı.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Hüseynov Ş. Fəal həyat mövqeyi və sənətkar refleksi//"Azərbaycan" jurnalı, 1989, № 9, s. 173-187
2. Xəlilov Q. Azərbaycan romanının inkişaf tarixindən / Q.Xəlilov, redaktor: Q.Qasımzadə. – Bakı: "Elm", – 1973, – 350 s.
3. İbrahimov M. Ana dili – hikmət xəzinəsi / Mirzə İbrahimov; red. T.Məmmədov. – Bakı: Azərnəşr, 1991, – 131 s.
4. İbrahimov M. Dövlət idarəsində Azərbaycan dili//"Kommunist" qəzeti, 1956, 25 oktyabr
5. İbrahimov M. Mübariz ədəbi tənqid uğrunda. "Ədəbiyyat qəzeti", 1946, 18 iyun
6. Nəbiyev B. Azərbaycan yazıçılarının XI qurultayı. Akademik B.Nəbiyevin çıxışı. "Ədəbiyyat qəzeti", 2004, 21 may
7. Nəbiyev B. Ədəbiyyat elmi: nailiyyətlər, problemlər, perspektivlər. AMEA Xəbərləri, 2004, №2
8. Tənqid, ədəbiyyat, müasirlik. "Ədəbiyyat və incəsənət", 1972, 18 mart
9. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı; mərhələlər, istiqamətlər, problemlər. Bakı: "Elm və təhsil", 2015, – 550 s.
10. Грич A. Otuz ildən sonra //"Azərbaycan" jurnalı, 1989, №10, s.152

Aynur HASANOVA

Criticism of the 1950^{s} and 1980^{s} in the literary debates of the Writers' Union

S u m m a r y

The article discusses the most important issues of Azerbaijani literary process existing in Writers' Union during 1960^{s}-80^{s} and the literary concepts influenced by the Writers' Union. Some scientific conclusions have also been drawn about the forms of expression of the XX century's Azerbaijani literary criticism and their influence on the literary process and works. The article emphasizes the need to address the ongoing discussions in Writers' Union in order to study literary and critical thinking, to create a comprehensive and in-depth study of the full scientific picture of our history. The article notes that as a result of the global socio-political atmosphere, which has been softening since the 1960^{s} and the weakening of the ideological currency in the USSR, young talents in the field of art began to create works critical of the existing political system. For example, prominent representatives of the 60^{s} generation such as I. Huseynov, S. Ahmadli, M. Araz, Anar, A. Aylisli, Elchin, S. Rustamkhanli, A. Salahzade, F. Karimzade can be mentioned. Ismayil Shikhli's novel "Deli Kur" reflects the features of this period. Naturally, the artists often described what they meant by subtext in their works. As a result of this type of discussion, new directions, literary trends and various genres began to develop in the works of different writers.

Айнур ГАСАНОВА

Критика 1950-80-х годов в литературных дискуссиях Союза Писателей

Р е з ю м е

В статье рассматриваются обсуждение в Союзе Писателей Азербайджана, важнейшие вопросы азербайджанского литературного процесса 1960-х и 1980-х годов и анализируются литературные концепции, созданные под влиянием Союза Писателей. Сделаны также некоторые научные выводы о формах выражения подхода азербайджанской литературной критики XX века к литературному процессу и произведениям. В статье подчеркивается необходимость обращение к дискуссиям проведенных в Союзе Писателей с целью изучения литературно-критической мысли, создания комплексного и глубокого изучения полной научной картины нашей истории. В статье отмечается, что в результате смягчения мировой общественно-политической атмосферы, начиная с 1960-х годов, и ослабления идеологического течения в СССР, молодые таланты в области искусства стали создавать произведения, критически относящиеся к сложившей политической системы. Можно подчеркивать видных представителей поколения 60-х, например И. Гусейнова, С. Ахмедли, М. Араза, Анара, А. Айлисли, Эльчина, С. Рустамханлы, А. Салахзаде, Ф. Керимзаде. В романе Исмаила Шыхлы «Дели Кур» отражается особенности этого периода. Естественно, эти писатели в своих произведениях часто описывали подтекстом то, что они имели в виду. В результате такого рода дискуссии стали развиваться новые направления, литературные течения и разные жанры в произведениях разных типов писателей.